Vəndam qəsəbəsində "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda tədbir keçirilmişdir

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzinin təşkilatçılığı ilə Vəndam qəsəbəsində "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" mövzusunda tədbir keçirilmişdir.

Tədbiri Vəndam qəsəbə inzibati ərazi üzrə nümayəndə İlham Bağırov açaraq qonaqları iştirakçılara təqdim etmiş, "Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə" sahəsində qəsəbədə aparılan işlərdən danışmışdır. Sonra sözü Qəbələ UADM-in direktoru Rəna Mahmudovaya vermişdir. Rəna Mahmudova sözü gedən Qanun barədə tədbir iştirakçılarını məlumatlandırmış, narkomaniyanın və alkoqolizmin ailələrə vurduğu ziyandan—ailələrdə məişət zorakılığı baş verməsindən, bununla bağlı aparılan maarifləndirmə işlərinə baxmayaraq, bu sahədə hələ də problemlərin olduğunu, məişət zorakılığı nəticəsində ailədə, uşaqlarda psixoloji gərginlik yaranmasından söz açmışdır.

Tədbirdə polis şöbəsinin əməkdaşı Azər Hüseynov Narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında geniş məruzə etmiş, rayonda narkotik vasitələrin qanunsuz dövriyyəsinin qarşısının alınmasından və bu sahədə hüquq-mühafizə orqanlarının birgə işindən danışmış, vətəndaşların suallarını hüquqi baxımdan çavablandırmışdır.

Qəbələ mərkəzi rayon xəstəxanasının narkoloq həkimi Sərxan Rüstəmovun çıxışında isə narkomaniya nəticəsində insan səhhətində yaranan xəstəliklər, orqanizmə vurulan ziyanlar, dünyaya gələcək körpələrin anormal doğulması, qıcolmalar kimi məsələlər geniş yer almış və buna görə narkotikin "Ağ ölüm" adlandırıldığı nəzərdiqqətə çatdırılmışdır.

Qəsəbə ağsaqqallarından Bahadur Nəsmiyev, Ağasəddin Nəsirov, müəllimlərdən Nurlan Əmiraslanov, Ruslan İsmayılov, qəsəbənin imamı Fərzalı Alıyev müzakirələr zamanı öz fikirlərini bildirməklə yanaşı, tədbir iştirakçılarından xahiş etdilər ki, bu sahədə qəsəbədə vaxtaşırı və daha geniş auditoriyada maarifləndirmə işinin aparılmasını təşkil etsinlər.

Fərid Ramazanlı,
Qəbələ UADM-in əməkdaşı.

Xeyirxahlıq babalardan yadigar qalıb

Deyərdim ki xeyirxahlıq, müdriklik, insanlığın əsil siması azərbaycanlılara məxsus varlığımızın mücəssəməsidir. Həyatımızın ülvi və mənəvi dünyası bizlərə lap qədimlərdən gəlmədir, babalarımızdan, atalarımızdan yadigar qalıb.

Hazırda da belə ənənələri yaşadanlar var. Həyatın bütün keşməkeşli, ağır yükləri bəlkə də gələcəyə belələrinin çiynində daşınır. Onlar əsl insani keyfiyyətlərə nümunədirlər, bəşəri dəyərlərə malik şəffav, saf və təmiz qəlbli, təmiz əqidəyə malik insanlardır, həmişə xalq tərəfindən sevilib və sevilirlər.

Belə bir səmimiyyəti, belə bir qayğakeşliyi, insani münasibətləri bu yaxınlarda kollektivimizdə gördüm. Mən Qəbələ şəhərində yaşayan 3 övlad anasıyam. Həyat yoldaşımı vaxtsız itirmişəm. Övladlarımı böyütmək, tərbiyə etmək, onları ərsəyə gətirməyin bütün çətinlikləri öz üzərimə düşdü. Təəssüf ki, ikinci övladım Nazim Mirzəyev xeyli müddət idi ki, böyrəyində daş əmələ gəldiyi üçün əziyyət çəkirdi. Qəbələdə onun müalicəsi mümkün olmadı. Həkimlərin məsləhətinə görə onun Bakı şəhər klinikalarından birində əməliyyata ehtiyacı vardı. Əməliyyat üçünsə maddi imkanım çatmırdı. İşlədiyim mərkəzi rayon xəstəxanasının baş həkimi Sabir Bayramovun, doğum şöbəsinin müdiri Səxavət Kərimovanın təşkilatçılığı ilə həkimlərdən Azadə Eyyubovanın, Zeynəb Qasımovanın, İsmət Tahirovanın, Mehriban Alxasovanın və adlarının çəkə bilmədiyim hər kəsin əziz övladımın müalicəsi üçün göstərdikləri maddi yardımı və qayğını heç bir vaxt unutmayacağam. Oğlum bu yardımın, qayğının sayəsində Bakı şəhərindəki Medstrayl klinikasının həkimi Fərəc Əfəndiyevin uğurlu əməliyyatı nəticəsində sağalıb evimizə qayıdıb. Sevincimizin həddi-hüdudu yoxdur. Bir ana kimi mən və övladlarım elə hesab edirik ki, əzablı-əziyyətli, ağır və niskinli-küskünlü bir dünyadan yeni və cənnətməkan bir həyata qayıtmışıq.

Hörmətli redaksiya, mənim və uşaqlarımın bu sevincini doğma Qəbələmizin sevimli qəzetinin oxucuları ilə bölüşməyi xahiş edirəm. Xüsusi olaraq övladımın müalicəsinə yardım göstərənlərə və onu müalicə edən Fərəc həkimə coxlu-coxlu təşəkkürlərimi çatdırmaq istərdim. Bu məktub çap olunarsa qabaqcadan bütün redaksiya kollektivinə minnətdarlığımı bildirirəm.

Şərəf MİRZƏYEVA,
rayon mərkəzi xəstəxanası doğum şöbəsinin xadiməsi.

«Qəbələnd» istirahət mərkəzində bahar əhval-ruhiyyəsi duyulur



Rayonumuzun əhalisinin və qonaqların istirahətlərini rahat və mənalı keçirmələri üçün «Qəbələnd» istirahət mərkəzində hər cür şərait var. Mövsümün başlanması ilə əlaqədar buradakı qurğu və aqreqatlara baxış keçirilmiş, saz vəziyyətdə olmaları bir daha yoxlanılmış, texniki qulluq göstərilmiş, sazlanmışdır.

İstirahət mərkəzinin işçiləri rayon əhalisinə və qonaqlara xidmət göstərmək üçün hazırdır və yolunuzu gözləyirlər.

Hər bir istirahət edən vətəndaşa, xoş saatlar, xoş əhval-ruhiyyə arzulayırıq.

Muzey xəbərləri

Dəyirmi masa

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində «Gənclik və zaman» mövzusunda dəyirmi masa keçirilmişdir. Hazırkı dövrümüzdə gənclərin elm və təhsildə əldə etdikləri nailiyyətlər, müstəqil Azərbaycanın bütövlüyü uğrunda canından keçən Şəhidlərimiz, onların vətən uğrunda fədakarlıqları mövzusunda da əhatəli söhbətlər aparılmışdır. Gələcəyimiz olan gənclərin müstəqil Azərbaycan uğrunda geniş fəaliyyətləri ön plana çəkilmişdir.

Ekskursiyalar davam edir

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyi son günlərdə daha cox qonaq qəbul etməkdədir. Xarici ölkələrdən, respublikamızın bölgələrindən, həmçinin məktəblilərin muzeyimizə ziyarətləri daha sıxdır. Ekspozisiya ilə tanış olan ziyarətçilər Albaniyanın 2500 illik tarixi ilə dərindən tanış olur, Azərbaycanın qədim və ulu keçmişinə səyahət edirlər.

Məktəblilər arasında ekskursiyadan sonra viktorinalar təşkil olunur, suallara dolğun cavab verən məktəblilərə muzey hədiyyələri təqdim olunur.

«Qəbələ».

80 yaşın mübarək

Vəndam Qəsəbə Sənətkarlıq Evində şəhid atası Naib Sadıqovun 80 yaşının tamam olması münasibəti ilə tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə Sənətkarlıq Evinin direktoru Azər Azayev açaraq qonaqları salamladı, yubilyar haqqında iştirakçılara qısa məlumat verdi. Söz Naib Sadıqovun sinif yoldaşı olmuş qəsəbə sakini Bəhram Mürşüdova verildi. Vəndam ağsaqqalları adından Ağasəddin Nəsirov, şəhid atası Rakif Qəribov, Elşən Salehov və başqaları yubiliyara öz təbriklərini çatdırdılar.

Naib əmi uzun müddət sadə peşə adamı olub, poçtalyon işləyib. Şirniyyat stolu arxasında keçən tədbirdə qəsəbənin bədii özfəaliyyət ansamblı rəngarəng musiqi nömrələri səsləndirdi.

Sonda Naib əmi tədbirin təşkilatçılarına və iştirakçılara öz təşəkkürünü bildirdi.

Samir AZAYEV,
Vəndam qəsəbəsi.